**AUDİT 2023, 1 (39), səh. 128-134.**
**AUDIT 2023, 1 (39), pp. 128-134.**
**АУДИТ 2023, 1(39), стр. 128-134.**

**DOI: 10.59610/bbu1.2023.128-134**

*Əliyeva Nailə Rauf qızı,*
*iqtisad elmləri doktoru,*
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*E-mail: aliyevanaila@rambler.ru*
*© Əliyeva N.R., 2023*

**UOT – 37.014**

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA ELM VƏ TƏHSİL İSLAHATLARININ MEMARIDIR

## X Ü L A S Ə

Müasir dövrdə ölkələrin inkişaf səviyyəsi iqtisadi meyarlarla yanaşı, həm də onun təhsil sistemindəki vəziyyət və mövcud kadr potensialı ilə də ölçülür. Bu da təsadüfi deyil. Çünki hər bir ölkədə gedən bütün mənfi və müsbət proseslər insan amili ilə sıx əlaqədardır. Hərtərəfli və davamlı inkişafın etibarlı yolu elm və təhsilə daha çox diqqət və qayğı göstərilməsindən və onun müasir dünya standartlarına uyğun təşkilindən keçir. Ona görə də qabaqcıl dövlətlər özlərinin inkişaf səviyyələrini qoruyub saxlamaq və yeni hədəflərə doğru irəliləmək üçün bu sahəyə birinci dərəcəli əhəmiyyət verirlər.

Ali təhsil sistemində islahatların aparılması, təlim praktikasında innovasiyaların tətbiqi ali məktəblərdə təhsil və elmi işlərin yüksək səviyyədə aparılmasına, elmi potensialın gücündən səmərəli istifadə olunmasına müsbət təsir göstərdi. Ulu Öndər həmişə qloballaşan cəmiyyət yaratmaqla bağlı qeyd edirdi ki, buna yalnız elm, təhsil və yeni təfəkkürlə nail olmaq mümkündür.

**Açar sözlər:** elm, təhsil, insan kapitalı, innovasiya, təhsil islahatları.

## G İ R İ Ş

Müasir dinamik dünyada iqtisadiyyatın rəqabət qabiliyyəti və sosial-iqtisadi inkişaf tempi iqtisadi subyektlərin qabaqcıl texnologiyaların, yeni bazarların öyrənilməsi və tətbiqindən, biliyin generasiyası və onun əqli kapitala çevrilməsindən asılıdır. İnsanların taleyi ilə bağlı hər hansı bir sahədə qəbul edilən qanunlar onların maraqları ilə təzad təşkil etməməli, başqa sözlə desək, onların layiqli həyat səviyyəsini təmin etməlidir. İnkişaf etmiş ölkələrin əksəriyyətində artıq belə bir anlayış qətiləşdirilmişdir ki, insanlar iqtisadiyyat üçün deyil, iqtisadiyyat insanlar üçündür. "İnsan inkişafı" anlayışı – elmi dövriyyəyə 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən daxil edilmiş və həmin vaxtdan geniş surətdə istifadə edilməyə başlamışdır. Qeyd edilən vaxtdan etibarən, BMTİP hər il İnsan İnkişafı haqqında məruzə təqdim edir. Burada başlıca vəzifə ondan ibarət olmuşdur ki, inkişafın həmin prosesinin iştirakçısı olan insanın mənafeyinə və onun imkanlarının genişlənməsinə yönəldiyi başa düşülsün və təmin edilsin. Dünya Bankının 192 ölkədə apardığı tədqiqat işlərinin nəticəsində müəyyən edilmişdir ki, yer kürəsində iqtisadi artımın 16% fiziki kapitalın, 20% təbii sərvətlərin, 64% isə insan resurslarının hesabına təmin edilir. İndi getdikcə daha çox aydınlaşır ki, insan resurslarının inkişafı və onlardan səmərəli istifadə olunmadan nə cəmiyyətin inkişafı üçün əsaslı şərait yaratmaq, nə də insanların özlərinin həyat və fəaliyyəti, onların arasındakı münasibətlərin dəyişdirilib təkmilləşdirilməsi sahəsində irəliləyişlərə nail olmaq mümkündür. Bu isə o deməkdir ki, respublikamızda aparılan islahatların başlıca

**AUDİT 2023, 1 (39), səh. 128-134.**
**AUDIT 2023, 1 (39), pp. 128-134.**
**АУДИТ 2023, 1(39), стр. 128-134.**

amilini ölkənin vətəndaş, intellektual və peşə potensialı təşkil edir. Bu isə, heç şübhəsiz ki, bilavasitə elm və elmi-texniki fəaliyyətin, təhsilin və insan kapitalının inkişafı ilə bağlıdır.

**Tədqiqatın əsas məzmunu**

Araşdırmalara əsasən Azərbaycan elminin nailiyyətlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- neft maşınqayırma sənayesinin, mürəkkəb geoloji mühitlərdə dərin qazmanın elmi problemlərinin həlli;
- neft kimyasının, neft-kimya sənayesinin inkişafı üçün xammal bazasının, kimya texnologiya komplekslərinin yaradılmasının elmi problemlərinin həlli;
- coğrafi, geoloji və geofiziki tətqiqatlar, filiz və qeyri-filiz, digər faydalı qazıntı yataqlarının tətqiqi;
- mexanika, fizika, riyaziyyat, astronomiya, informatika sahələrində mühüm əhəmiyyəti olan tətqiqatların aparılması və nüfuzlu elmi məktəblərin yaradılması;
- əkinçiliyin, torpaqşünaslığın, meliorasiya və su təsərrüfatının elmi problemlərinin həlli;
- fiziki–kimyəvi və molekulyar biologiya, gen mühəndisliyi, bionika, seleksiya sahəsindəki tədqiqatlar nəticəsində onlarla yeni yüksəkməhsuldar bitki sortlarının, kənd təsərrüfatı heyvan cinslərinin yaradılması;
- tibb elminin müxtəlif sahələri üzrə tədqiqatlar və yerli təbii dərman və mineral mənbələrinin aşkar edilməsi, səhiyyə üçün yeni diaqnostika, müalicə və profilaktika üsullarının işlənib hazırlanması;
- xalqımızın etnogenezinin, arxeologiyasının, etnoqrafiyasının, siyasi, sosial-iqtisadi tarixinin və tarixşünaslığının tədqiqi;
- azərbaycanlı filosof və mütəfəkkirlərin orta əsrlərdə ərəb, türk və fars dillərində çap olunmuş əlyazmalarının, zəngin irsinin tədqiqi;
- ictimai-ədəbi fikir tarixinin, ədəbiyyatşünaslığın əsas məsələlərinin, ədəbiyyat tarixinin tədqiqi;

Şərq xalqlarının tarixi, ədəbiyyatı, filologiyası, dilləri, ictimai fikri və din tarixinin tədqiqi, yazılı abidələrin tərcüməsi və nəşri, Şərq ölkələrində cərəyan edən ictimai-siyasi və etnik-mədəni proseslərin araşdırılması;

- tarixi milli-memarlıq məktəblərinin öyrənilməsi, müasir memarlıq məktəblərinin yaradılması, memarlıq abidələrinin bərpası sahəsində tətqiqatların və sənədşünaslıq elminin inkişafı;
- Azərbaycan dilinin, ədəbi dil tarixinin, dialektlərinin tədqiqi, izahlı, tərcümə, terminoloji luğətlərin tərtibi, dialektoloji atlas və s.-nin hazırlanması və s.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra elmdə islahatların həyata keçirilməsi üçün əlverişli zəmin yarandı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2003-cü il 4 yanvar tarixli fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elm və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycandakı bütün elmi muəssisələrin və ali məktəblərin elmi tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilat statusunun verilməsi ilə Akademiyanın fəaliyyət dairəsi xeyli genişləndirilmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2009-cu il 4 may tarixli sərəncamı ilə isə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafi üzrə milli strategiya"sının və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafi üzrə milli strategiyanin həyata keçirilməsi ilə bağli dövlət proqramı"nın təsdiq edilmişdir.

**AUDİT 2023, 1 (39), səh. 128-134.**
**AUDIT 2023, 1 (39), pp. 128-134.**
**АУДИТ 2023, 1(39), стр. 128-134.**

XXI əsr elm, təhsil və qlobal düşüncə, Azərbaycan təhsilinin dünyaya inteqrasiyası dövrü kimi səciyyələnir. Dərin zəkası, zəngin biliyi, maraq dairəsinin genişliyi, qətiyyəti, ciddiliyi, daxili və xarici siyasətdəki uğurları, Azərbaycanın müstəqilliyi və bütövlüyünü qorumaq məharəti, elm, mədəniyyət, incəsənət və təhsilə göstərdiyi diqqət, qayğı Heydər Əliyevi ictimai xadim, müdrik bir şəxsiyyət kimi ürəklərdə yaşadır, dövlətçiliyimiz, həyatımız onun işıqlı ömründən nur alır. XX əsrlə XXI əsrin qovuşuğunun fenomeni olan Heydər Əliyevin milli təhsil quruculuğu strategiyası Prezident İlham Əliyev tərəfindən ölkənin sosial-iqtisadi inkişafı strategiyasına, tərəqqi və inkişafına, müstəqillik və dövlətçilik ənənələrinin möhkəmlənməsinə, milli mənəvi və bəşəri dəyərlərin qorunmasına, təhsildə köklü islahatlar aparılmasına zəmin yaratdı. Ulu Öndər Heydər Əliyevin təhsilə verdiyi böyük qiymət Azərbaycanda demokratiyanın yaranması, formalaşması və çiçəklənməsi dövrünün inkişafında ən mühüm hadisəyə çevrildi. Elm və təhsilə böyük önəm verilməsi, bir-birinin ardınca yeni proqram və layihələrin, təhsil islahatlarının həyata keçirilməsi ölkənin elmi, mədəni və sosial-iqtisadi həyatında dönüş yaratdı. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin dediyi kimi, “Bugünkü Azərbaycan Heydər Əliyevin şah əsəridir”. Həmyerlilərimiz pərakəndə şəkildə tarixi-nin müxtəlif çağlarında xaricdə təhsil almışlar. Planlı və məqsədyönlü şəkildə, dövlət səviyyə-sində təhsil isə XX əsrin əvvəllərində, yəni Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəra-rı ilə 1919-cu ildə 100 nəfərdən çox azərbaycanlı gəncin xaricə ali təhsil almağa göndərilməsi ilə başlanmışdır.

Ümummilli Liderimiz Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayandan sonra bu sahədə, sözün əsl mənasında, dirçəliş başladı. Təsadüfi deyil ki, 1970-ci ildə respublikadan kənarda təhsil almağa göndərilən gənclərin sayı 70 nəfər idisə, 70-ci illərin sonunda 900 nəfər, 80-ci illərin əvvəllərində isə ildə 1000-1400 nəfər olmuşdur. Həmin dövrdə, ümumilikdə, 15 mindən çox gənc nüfuzlu ali məktəblərdə müxtəlif ixtisaslar üzrə təhsil aldıqdan sonra Vətənə qayıdaraq, ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə öz layiqli töhfələrini verdilər. 1999-cu ilədək təhsil sahəsində müxtəlif qərarlar qəbul edilsə də, təhsilin milli tərəqqimizin güclü amilinə çevrilməsi üçün dövlət təminatı olmalı idi. Odur ki, 1998-ci ilin martında “Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında” sərəncam imzalandı və bunun ardınca “Təhsil sahəsində islahatlar Proqramı” qəbul edildi. Komissiyanın yekun iclasında çıxış edən Heydər Əliyev demişdir: “Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır”.

Xaricdə təhsilə olan Ümummilli Lider qayğısı bu gün də ölkə başçısı İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir. Belə ki, Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədilə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı imzalanmışdır. Xarici ölkələrdəki gənclərimiz təhsil almaqla yanaşı, həm də Azərbaycan xalqının təmsilçisi, onun qədim mədəniyyətinin, adət və ənənələrinin təbliğatçılarıdırlar. Buna görə də xarici ölkələrin aparıcı ali məktəblərində təhsil almaq üçün tələbələrin seçilməsi, ixtisaslarının müəyyənləşdirilməsi və onlara təhsil almaq üçün lazımi şəraitin yaradılması mühüm əhəmiyyətə malik olan məsələlərdir. Azərbaycanın dövlət mənafelərini qoruyacaq yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məqsədilə xaricdə təhsil proqramları mahiyyətinə görə müxtəlif formalarda həyata keçirilir:

– öz imkanları hesabına xaricdə təhsil;
– müxtəlif təhsil mübadilə proqramlarını həyata keçirən təşkilat və digər donor qurum-

**AUDİT 2023, 1 (39), səh. 128-134.**
**AUDIT 2023, 1 (39), pp. 128-134.**
**АУДИТ 2023, 1(39), стр. 128-134.**

ların təqaüdləri hesabına xaricdə təhsil;

– dövlət xətti ilə, yəni təhsil sahəsində əməkdaşlıq haqqında ikitərəfli razılaşmalar əsasında Azərbaycan vətəndaşları üçün ayrılan təqaüdləri hesabına Təhsil Nazirliyi tərəfindən həyata keçirilən xaricdə təhsil.

Hazırda uğurla həyata keçirilən Dövlət Proqramı və eləcə də yuxarıda qeyd olunan digər təhsil formaları üzrə, demək olar ki, Avropa ölkələrinin əksəriyyətində, ABŞ, Kanada, Rusiya, Türkiyə, Çin, Yaponiya, Cənubi Koreya və s. ölkələrdə minlərlə Azərbaycan vətəndaşı təhsil alır.

"Təhsil və informasiya əsri" elan edilən XXI yüzillikdə insan kapitalının ahəngdar inkişafında, ölkənin iqtisadiyyatının möhkəmləndirilməsində, ictimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılmasında, bazar iqtisadiyyatına keçid mərhələsində təhsilə böyük önəm verilməsi, infrastrukturun yeniləşdirilməsi, yeni texnologiyalardan, innovasiyalardan istifadə edilməsinə şəraitin yaradılması indiki qədər geniş vüsət almamış, beynəlxalq arenada dəstəklənməmişdir.

BMT-nin təhsil, elm və mədəniyyət təşkilatı olan YUNESKO-nun ali məqsədi bütün dünya ölkələri arasında elm, təhsil və mədəniyyət körpüsü salmaq və bu vasitə ilə bütün dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək göstərməkdir. Hazırda 193 dövlətin üzv olduğu YUNESKO öz üzvlərinə, dünya səviyyəli elmi və pedaqoji kadrların hazırlanması imkanı verməklə yanaşı, qlobal elmi layihələrdə iştirak etmək şansını da təqdim edir. Azərbaycan müstəqillik əldə etdikdən sonra, 1992-ci il 3 iyul tarixindən YUNESKO-nun üzvüdür. YUNESKO ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında ən mötəbər addım Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü ilin dekabr ayında Fransa Respublikasında rəsmi səfərdə olarkən YUNESKO-nun Baş direktoru Federiko Mayorla görüşü zamanı atılıb. Görüşdə YUNESKO-nun Azərbaycanla əlaqələrini genişləndirməyin perspektivləri müzakirə olunub, Azərbaycanda gedən müharibə, qaçqınların problemləri, müharibənin elm, təhsil, mədəniyyət sahəsində yaratdığı çətinliklərin aradan qaldırılması yolları barədə fikir mübadiləsi aparılıb. Qeyd etmək lazımdır ki, Heydər Əliyev və Federiko Mayor ilk dəfə 1983-cü ildə YUNESKO xətti ilə Bakıda keçirilmiş və Şərq xalçalarına həsr edilmiş birinci beynəlxalq simpoziumda tanış olublar. YUNESKO-nun Nizamnaməsinə əsasən üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Bu səbəblə də görüş zamanı Heydər Əliyev belə milli komissiyanın yaradılmasının vacibliyini və bu məsələ ilə bağlı təxirəsalınmaz tədbirlər görəcəyini bəyan edib. 21 fevral 1994-cü ildə Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiya yaradılıb. Daha sonra Respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılıb. Bu Milli Komissiya Azərbaycanın YUNESKO-dakı siyasətinin əsas istiqamətlərini müəyyən edir. Heydər Əliyev Azərbaycan və YUNESKO əlaqələrinin inkişaf perspektivlərini görür və bu sahəyə hər zaman nəzarət edirdi.

Heydər Əliyev 35 il Azərbaycan dövlətinin sükanı arxasında dayanaraq, Azərbaycan dövləti, respublikası adlanan gəmini çoxlu təlatümlərdən, şahə qalxan dalğalardan məharətlə keçirmiş və gələcəyə apara bilmişdir. 35 il bir ölkəyə rəhbərlik etmək hər siyasi xadimin işi deyildir. Həm də 35 ildə görülən işlər öz masştabına, əhatəliyinə görə bir insan ömrünə sığmazdır. Ötən əsrin 70-80-ci illərində Azərbaycan Respublikası yüksək inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə çevrildi. Elm, mədəniyyət sahəsində böyük işlər görüldü. Son 15 ildə respublikamızda yeni iqtisadi sistemin tələblərinə uyğun olaraq sosial sahədə islahatların keçirilməsi xalqın güzəranının yaxşılaşdırılması imkanlarını xeyli genişləndirmişdir. Onun tap-

**AUDİT 2023, 1 (39), səh. 128-134.**
**AUDIT 2023, 1 (39), pp. 128-134.**
**АУДИТ 2023, 1(39), стр. 128-134.**

şırığı ilə Azərbaycanda 2003-cü ildə "Yoxsulluğun azaldılması üzrə Dövlət Proqramı" qəbul edildi. Geniş miqyaslı aqrar islahatlar həyata keçirilmiş, keçmiş sovet respublikaları arasında ilk dəfə Azərbaycanda torpaqlar pulsuz olaraq kənd əhalisinə paylanılmışdır. Nəticə özünü çox gözlətmədi: Azərbaycan daxili imkanları hesabına taxıla və digər strateji bitki növlərinə olan tələbatını tam ödədi. Azərbaycanda elmi təhlilə əsaslanan, müasir tarixi şəraitin reallıqları nəzərə alınmaqla həyata keçirilən daxili və xarici siyasət ölkəmizə digər sahələrdə olduğu kimi elm sferasında da uğurlar qazandırıb. Ədalət naminə qeyd etmək lazımdır ki, eks-Prezident Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə (1962-1982-ci illərdə) respublikamızda elmi-tədqiqat, layihə-konstruktor və texnologiya işlərini yerinə yetirən mütəxəssislərin sayı 36,6% artaraq, 16594 nəfərdən 22672 nəfərə, o cümlədən elmlər doktorlarının sayı 60,1% artaraq 582 nəfərdən 932 nəfərə, elmlər namizədlərinin sayı isə 76,6% artaraq 4931 nəfərdən 8710 nəfərə çatmışdır. 70-ci illərdə və 80-ci illərin əvvəllərində respublikada aparılan elmi tədqiqatlar sahəsində uğurlu nəticələrin əldə edilməsinin əsas səbəblərindən biri həmin illərdə Azərbaycana rəhbərlik etmiş mərhum Heydər Əliyevin böyük təşkilatçılıq istedadı və tələbkarlığı nəticəsində burada güclü kadr potensialının və texniki arsenalın yaradılması olmuşdur. Elmin ölkənin həyatındakı rol və yerinin bərpa edilməsi məqsədiilə son illərdə bu sahəyə dövlət qayğısı artırılmış, Azərbaycan elmində bir sıra mütərəqqi islahatlar həyata keçirilmiş, elmi-tədqiqat müəssisələrində köklü struktur dəyişiklikləri aparılaraq, aktuallığını itirmiş bir çox elmi-tədqiqat işlərinin icrası dayandırılmış, bir sıra Elmi-Tədqiqat İnstitutları, şöbə və labaratoriyaları ləğv edilmiş və ya birləşdirilmiş, əvəzində daha mütərəqqi və müasir şöbə və labaratoriyalar yaradılmış, yeni və daha aktual problemlərin işlənməsinə başlanmışdır. Belə şəraitdə elmlər doktorlarlarının sayı 1170-dən 2000-ci ildə 1243 nəfərə qədər artmış 2012-ci ildə, fəlsəfə doktorlarının sayı 5954 nəfərdən 5869 nəfərə artmış həmin illərdə. "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin arasında xüsusi yer tuturlar" – deyən Ulu Öndər Heydər Əliyev ölkəmizin qarşısında duran ən mühüm vəzifələrdən biri Azərbaycan dövlətinin elmi-texniki siyasəti əsasında elmin gələcək inkişaf strategiyasını müəyyənləşdirməyə çağırırdı. Bu strategiyanın əsas məqsədi- ölkənin mövcud elmi-texniki və kadr potensialının qorunub saxlanılması, təbiət və cəmiyyətin inkişaf qanuna-uyğunluqları haqqında dövlət əhəmiyyətli yeni fundamental elmi istiqamətlərin daha da inkişaf etdirilməsi, onların nəticələrindən daha səmərəli istifadə olunmasını təmin etməkdən və elmi-texniki tərəqqinin uzunmüddətli inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. 70-ci illərdə yaradılmış elmi-texniki istehsal potensialı olmasaydı, bu gün müstəqil Azərbaycan çoxlu çətinliklər, problemlərlə üzləşə bilərdi.

1993-cü il hakimiyyət dəyişikliyindən sonra həqiqi Azərbaycan siyasətinin, Azərbaycan milli ideyasının həyata keçirilməsi dövrü başlandı. Bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də tənəzzül, təhlükəli, dağıdıcı meyllərin qarşısı alındı. Milli təhsil sisteminin bərpası və yeni şəraitin tələblərinə uyğun inkişaf etdirilməsi üçün əlverişli siyasi, iqtisadi mühit yarandı. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı əslində milli təhsilimizi dağılmaq təhlükəsindən xilas etdi. Heç kimə sirr deyil ki, AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə təhsilimizə elə bir zərbə vurulmuşdu ki, artıq təhsil sistemimiz tamanilə məhv olmaq təhlükəsi qarşısında idi. Cənab Heydər Əliyevin hakimiyyətə gəlişi bu mühüm sahəni yenidən inkişaf yoluna qaytardı. Müəllimlərimizdə gələcəyə inam yarandı, öz iş yerlərini tərk edib, başqa sahələrə üz tutan pedaqoqlarımız yenidən təhsil ocaqlarına qayıtdılar. Təhsil sistemində tam yeniləşmə ruhu hakim olmağa başladı, təhsilimizdə mütərəqqi ənənələr zərrə-zərrə, damla-damla bərpa olundu. Ölkəmizdə iqtisadi vəziyyət sabitləşəndən sonra möhtərəm Heydər Əliyev təhsil

**AUDİT 2023, 1 (39), səh. 128-134.**
**AUDIT 2023, 1 (39), pp. 128-134.**
**АУДИТ 2023, 1(39), стр. 128-134.**

islahatlarının keçirilməsinə dair mühüm fərman və sərəncamlar imzaladı. 15 iyun 1999-cu il tarixli sərancamı ilə Cənab Heydər Əliyev təhsil sahəsində islahat proqramını təsdiq etməklə milli təhsilimizdə yeni, mütərəqqi bir eranın başlanğıcını qoydu. Bu problemləri aradan qaldırmaq üçün 13 iyun 2000-ci il tarixdə Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə şəhərin sosial-iqtisadi və mədəni həyatını yaxşılaşdırmaq üçün kadr hazırlığına başlandı. Az bir müddət ərzində universitetlərin elm, təhsil və maddi-texniki təchizi sahəsində dönüşün yaradılması Heydər Əliyevin dəstəyindən, milli təhsilimizə göstərdiyi qayğıdan sonra yüksək sürətlə inkişaf etməyə başladı, uğurlu nəticələr əldə edildi.

Təhsilə, elmə belə bir münasibət Heydər Əliyev siyasətinin aparıcı istiqaməti, onun yüksək ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü idi. Ümumiyyətlə, genişmiqyaslı işlərlə məşğul olmasına baxmayaraq, ali məktəblərdə tələbə qəbulu və hazırlığı Heydər Əliyevin bilavasitə rəhbərliyi və nəzarəti altında aparılırdı. "Bilik əsas meyardır", "Qoy ədalət zəfər çalsın" devizi tələbə qəbulunun əsas meyarı elan edilmişdi. O, müəllimlərin mənzil-məişət şəraitinin yaxşılaşmasına da böyük qayğı göstərirdi. Bir dəfə söhbətində xatırlatdı ki, ən böyük alimlər heç də həmişə tam təmin olunmuş şəraitdə yazıb-yaratmamışlar. Bununla belə, onlar elmə böyük töhfələr vermişlər. Fundamental tədqiqatların əhəmiyyəti və onların inkişafının təminatı sahəsində bir çox əməli işlər görüldü. 2001-ci ilin mayında prezidentin fərmanı ilə AMEA-nın dövlət statusu möhkəmləndirildi. Bununla da elmin ölkənin inkişafının əsas təminatçısı olduğu bir daha təsdiqləndi. 2001-ci ilin iyun ayında AMEA-nın həqiqi və müxbir üzvlərinin seçkiləri keçirildi. Ölkə başçısının fərmanları ilə elm adamlarının əməkhaqları artırıldı. AMEA-nın Naxçıvan bölməsi yaradıldı. Bir fakt xüsusi qeyd olunmalıdır ki, tariximizin son 34 illik milli intibahı mahiyyət etibarilə xalqın təhsil səviyyəsinin yüksəlişi, fundamental elmin yaranması, milli mədəniyyətin tərəqqisi ilə sıx bağlı olmuşdur.

## YEKUN

Azərbaycanda elmin və təhsilin inkişafı dövlətin xüsusi diqqət mərkəzindədir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 04 may 2009-cu il tarixli, "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 2 may 2009-cu il tarixli, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"nin təsdiq edilməsi haqqında 19 fevral 2010-cu il tarixli fərman və sərəncamları bu sahəyə yeni stimul və impuls vermişdir. Bu gün dahi Heydər Əliyevin zəngin maarifçilik ideyalarını Azərbaycan Respublikasının Prezidenti Möhtərəm İlham Əliyev və Vitse-prezidenti Mehriban Əliyeva əzmlə, uğurla həyata keçirirlər. Dövlət başçısı İlham Əliyevin böyük uzaqgörənliklə söylədiyi – "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir" - konseptual müddəasının əsası da məhz həmin maarifçilik ideyalarından bəhrələnir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Газета «Бакинский рабочий», №206,12 ноября, 2014 год
2. Газета «Бакинский рабочий», №78, №79, 4,5,9,11,12,17 мая, 2017 год
3. Газета «Бакинский рабочий», №209,11 ноября, 14 июля, №96, 28 мая, 2015 год
4. Газета «Каспий»,№123, 12 ноября 2014 год
5. Газета «Бакинский рабочий», №193,16 октября, 2018 год

**AUDİT 2023, 1 (39), səh. 128-134.**
**AUDIT 2023, 1 (39), pp. 128-134.**
**АУДИТ 2023, 1(39), стр. 128-134.**

*Nailya Rauf Aliyeva,*
*D.Sc. (Econ.),*
*Azerbaijan State Economic University*
*E-mail: aliyevanaila@rambler.ru*
*© N.R. Aliyeva, 2023*

## HEYDAR ALIYEV IS THE ARCHITECT OF SCIENCE AND EDUCATION REFORMS IN AZERBAIJAN

### A B S T R A C T

Nowadays, the level of development of countries is measured not only by economic criteria, but also by the situation in its educational system and the existing personnel potential. This is not accidental. Because all negative and positive processes in each country are closely related to the human factor. A reliable way of comprehensive and sustainable development is to pay more attention and care to science and education and organize it according to modern world standards. That is why the West and other advanced countries of the world attach primary importance to this area in order to maintain their development levels and move towards new goals. The creation of a turn in the management system laid the foundation for the development of education, science, and the application of democratic principles to practical work. Carrying out reforms in the higher education system, introducing innovations in training practices had a positive effect on the high level of educational and scientific work in higher schools, and on the efficient use of the power of scientific potential. The Nationwide leader Heydar Aliyev always said about creating a globalized society which can be achieved only through science, education and new thinking.
**Keywords:** science, education, human capital, innovation, education reforms.

*Алиева Наиля Рауф кызы ,*
*доктор экономических наук,*
*Азербайджанский Государственный Экономический Университет*
*E-mail: aliyevanaila@rambler.ru*
*© Алиева Н.Р., 2023*

## ГЕЙДЕР АЛИЕВ – АРХИТЕКТОР РЕФОРМ НАУКИ И ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

### Р Е З Ю М Е

В современное время уровень развития страны измеряется не только экономическими критериями, но и положением в ее системе образования и имеющимся кадровым потенциалом. Это не случайно. Потому что все негативные и позитивные процессы в каждой стране тесно связаны с человеческим фактором. Надежный путь всестороннего и устойчивого развития – уделять больше внимания и заботы науке и образованию, организовывать их по современным мировым стандартам. Вот почему Запад и другие передовые страны мира придают этому направлению первостепенное значение, чтобы поддерживать свой уровень развития и двигаться к новым целям. Создание поворота в системе управления положило начало развитию образования, науки, применению демократических принципов в практической работе. Проведение реформ в системе высшего образования, внедрение инноваций в практику обучения положительно сказались на высоком уровне учебно-научной работы в вузах, на эффективном использовании мощи научного потенциала. Общенациональный лидер Гейдар Алиев всегда говорил о создании глобализированного общества, которое можно достичь только с помощью науки, образования и нового мышления.
**Ключевые слова:** наука, образование, человеческий капитал, инновации, реформы образования.

*Məqalə redaksiyaya daxil olmuşdur: 20.01.2023*
*Təkrar işləməyə göndərilmişdir: 31.01.2023*
*Çapa qəbul olunmuşdur: 09.02.2023*

*Дата поступления статьи в редакцию: 20.01.2023*
*Отправлено на повторную обработку: 31.01.2023*
*Принято к печати: 09.02.2023*

*The date of the admission of the article to the editorial office: 20.01.2023*
*Send for reprocessing: 31.01.2023*
*Accepted for publication: 09.02.2023*